Elitar Gimnaziyanın və Avropa Liseyinin ingilis dili müəllimləri üçün keçirilən treninqlərin məqsədi "1 şagird-1 kompüter" layihəsində iştirak edən məktəblərdə quraşdırılacaq linqafon sinif otaqlarının informasiya texnologiyaları vasitəsilə idarəsi, şagirdlərin noutbuk linqafon sinif otaqlarında effektiv istifadəsi və ingilis dilinin tədrisinin keyfiyyətinin artırılmasından ibarətdir. Təlim zamanı müəllimlərə avadanlıqdan və proqramlardan istifadə üzrə nəzəri və praktiki biliklər verilib.

Onu da qeyd edək ki, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilən "1 şagird-1 kompüter" layihəsi şagirdlərin həm məktəbdə, həm də evdə informasiya texnologiyalarının effektiv istifadəsini təmin etməyə yönəlib. Odur ki, layihə çərçivəsində pilot siniflərin şagirdlərinə məktəbdə və evdə istifadə üçün noutbuklar verilir.